İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# SEKOND HƏND – İKİNCİ HƏYAT

HƏMİD HERİSÇİ

parlaq
İMZALAR

| | |
|---|---|
| Koordinator: | Amin |
| Korrektor: | Flora ƏLİYEVA |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Art-direktor: | Ramin HƏSƏNƏLİZADƏ |
| Cildin dizayneri: | Mübariz YUSİFZADƏ |

**Həmid Herisçi**
**SEKOND HƏND – İKİNCİ HƏYAT**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2022, 120 səh.

**© Həmid Herisçi / 2022**
**© Parlaq İmzalar MMC / 2022**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 116
Müasir Azərbaycan ədəbiyyatı | 8

ISBN 9952547337
9789952547337

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "Nurlar" NPM
Çap tarixi: 19.04.2022
Sifariş: 41(05)/22

# Mündəricat

Yandır Bakını, tazə gülüstan tələb eylə! ____ 7
Haker ____ 13
Koronaviruslu Çin gözəli ____ 17
Etiraf ____ 21
“Qara sevda” ____ 23
Mehdi Hüseynzadənin sonu ____ 25
“Zonquzonqu” virusu ____ 29
Suiti ____ 35
Cəlladla üz-üzə ____ 39
Mürdəşir ____ 45
Legioner Otello ____ 49
Faust ____ 53
Əhməd hardadır? ____ 55
Altıbarmaqlının nişan üzüyü ____ 57
Köhnə güzgü ____ 59
Sahilim ____ 61
Payız ____ 63

Son balet ____ 67
Tərsa qızı ____ 71
2-ci Albalı bağları sahəsi ____ 77
Ququşun ağ yaxtası ____ 83
Bizim tramvay ____ 87
İki səmanın qartalı ____ 89
Sekond hənd – ikinci həyat ____ 95
Edison lampası ____ 103
“Şəms Təbrizinin şeiri” ____ 107
Bu şeir Bayıl zindanında ölümə
məhkum olunmuş Əhədlə vidalaşmağımdı... ____ 111
Kiçiklik ____ 115

# YANDIR BAKINI, TAZƏ GÜLÜSTAN TƏLƏB EYLƏ!

*Sabir Əhmədlinin xatirəsinə*

* * *

Məni sevənlərin hamısı öldü...

Son işıqları
son siqaret kimi sümürdü,
sonra öz namusunu yerə tüpürdü
ətrafımdakı əclaflar...

Ağrım cəhənnəmi gedib
gördü,
buludların döş cibindən gizlicə
ildırım tapançasını
götürdü,
bir “Sovetski cayılı”na ötürdü...

Tutaq ki, bir polis tulası
bunu lap gördü,
tüfənglər məni nəzarətə
götürdü,
tutaq ki, talem tərs üzünə çöndü...
Şeytan tez gəlib
qəbiristanlığa bir “KAMAZ”
daş-çınqıl tökdü...
Tutaq ki,
səni sevənlərin ən axırıncısı da
öldü...
Qorxma,
yandır Bakını, tazə gülüstan tələb eylə!
Fitva məndən, güllələ bu milləti,
son nəfərinədək güllələ...

* * *

Rəhmət oxu bəstəkar-prokuror
Ələkbər Tağıyevin ölüsünə!
Öz qurbanlarına "Sən gəlməz oldun" mahnısını
bəstələyənə...
Onun son hönkürtüsünə,
"Bayatı-İsfahan"ın son pərdəsinə
"məni sevənlərin hamısı öldü!"
nidasını da qat...
Qoy yüz dəfə təkrarlansın bu nəqərat...
Yandır Bakını, tazə gülüstan tələb eylə!

* * *

Neçə illərdir minlərlə adam
telefon nömrəsini səhv yığıb,
bir "Nərminə xala"nı bizim evdə
axtarır,
telefon dəstəyinə öz nəfsini,
nəfəsini fısıldayır...

Atam öldü, anam getdi...
Sabir Əhmədli dünyanı tərk etdi...
Nərminə xalanı isə
hələ də soruşurlar,
bəlkə də, bu cür o xalanı
həyatda yaşadırlar?..

Bəlkə, o, canlı meyitdi,
bəlkə, bu Nərminə ağır seyiddi –
o hələ sağdı,
səhhəti cağbacağdı...
"Nərminə xanımı olar?", vallah, bu...
Bu, şeytanı çağırmaqdı!!!
Arzularımın ən sonuncusunu
itələyib, damdan yıxıtmaqdı,
bu lap axırda qışqırmaqdı:
"Yandır Bakını, tazə gülüstan tələb eylə!"
Tüpür bu Nərminə xalaların
yağlı sifətinə...
Yandır Bakını, tazə gülüstan tələb eylə!

* * *

Bakı başlayır
Bibiheybətin qara nəzir qutusundan,
“Bakı-Ağstafa” qatarında yatanların
səfeh bir yuxusundan,
həyatın axmaq bir xətasından,
küləyin Balaxanı zibilliyində
özünə pay axtarmasından,
öz qismətini orda tapmasından,
sonra bu qismətini bulvarda
unutmasından...
Nə vaxt bir şüşə “çubuş”dan
nağılların divi çıxır,
sənin isə əlinə bədəninin
kifi çıxır,
bir də görürsən arxa qapıdan
kifir bir bibi çıxır,
küçə itlərindən birinə
tez sahib çıxır...

Bir də görürsən onlar
Baksovetə gəlib çıxır...
Məni sevənlərin ən sonuncusu
bunu görüb bərk karıxdı...
Yerə yıxıldı,
torpağı cırmaqladı...
Mən isə gedirəm,
çəkmələrimi geyirəm,
mən isə deyirəm:
“Yandır Bakını, tazə gülüstan tələb eylə!”
Salam olsun
məscid günbəzinə qonmuş
ağappaq,
pak
İmam Hüseyn göyərçinlərinə!
Məni sevmiş son nəfərə!

## HAKER

Koka-kolamın
uduşsuz, ulduzsuz qapağına
bir də baxdım, bir də baxdım,
pulumun qalanına, ən halalına
tum da aldım, tum da aldım,
gecənin saqqalına
dən də saldım, qəm də saldım.
Bakımın ən kor dalanında
əvvəl öz qapımı, sonunda ayaqqabımı
axır, şükür, tapdım.
Bütün durğu işarələriylə özümü tamamladım,
hakerliyə başladım...

Yardım eyyyyy
Donald Trampın tvitter akkauntunu,
özü də bilmədi necə dəyişdin
miqrant qanununu,
Putinin adından ona məktub yazıb,
qəfil dəyişdin göydəykən
təyyarəsinin marşrutunu.
Sübut elədim Zəlil Sənətquluzadənin
gürcülərdən oğurluğunu.
Yazarlardan Den Braunu
uşaq kimi dolayıb,
oğurladım axır, şükür, da Vinçinin
qırx düyünlü kodunu.

Girdim bu kodla Ərəbistana,
söndürdüm uf demədən şeyxlərin
pepsi-kola, araqla dolu
nəhəng soyuducusunu.
Sonra lap cürətlənib
Renaldoya tərgitdim
cəhənnəmdəki futbolunu.
Gördüm Makron xəstədi...
İlk fürsətdə gedib iyləyir
öz qoltuğunu!!!
İkiüzlüdü... arvadıyla tək qalanda
danır yəhudilərin Holokostunu!!!

Britaniya şahzadəsinə
hərbi çağırış vərəqəsi göndərdim,
meyitxana cəsədlərinin
seksini, eşqini də görüntülədim...
Kosmosa uçub orda
bir kəfən, bir çətən yadplanetliylə
selfi çəkdirdim.

Axır... axır qərara gəldim
oralarda qalım...

Əzizim, gülüm, ey guşidarım!!!